**UOT 338.431**

# DÜNYA İQTİSADİYYATININ YENİ İQTİSADİ TƏFƏKKÜRLƏ İDARƏ OLUNMASININ ZƏRURİLİYİ HAQQINDA

**İsa Hüseyn oğlu ALIYEV**

*İqtisad elmləri doktoru, professor*
*İqtisadiyyat İnstitutu, AMEA*

*alıyev@yahoo.com*

*Məqalədə dünya iqtisadiyyatının yeni iqtisadi təfəkkürlə idarə olunmasının zəruriliyi məsələlərinə toxunulmuş, bu sahədə mövcud problemlər araşdırılmış, onların həll istiqamətləri göstərilmişdir. Qlobal müstəvi mühitində ölkələrin sərbəst iqtisadi qərarlar qəbul edə bilməsi prosesi bir qədər çətinləşməkdədir. Belə ki, transmilli korporasiyaların fəaliyyəti, dünyada baş verən qlobal iqtisadi problemlərin gərginliyi (işsizliyin artması, ərzaq məhsullarının sürətlə bahalaşması, yoxsulluğun artması və s. kimi amillər) bu proseslərə ciddi təsir göstərir.*

***Açar sözlər****: rəqabətqabiliyyəti, iri sənaye, sahibkarlıq, bazar iqtisadiyyatı, iqtisadi islahatlar*

İqtisad elmi inkişaf edib indiki sistem halını alana kimi özünəməxsus ziddiyyətli birmənalı olmayan uzun tarixi inkişaf yolu keçmişdir. Onun mahiyyətini təşkil edən əsas müddəalar, fikirlər, nəzəriyyələr və konsepsiyalar dərin tarixi köklərə malikdir və onlar çox qədimlərə gedib çıxır. İqtisad elminin ana xəttini sərvət, onun mənşəyi, bölgüsü və istehlakı üzrə, xüsusilə də dəyər (qiymət) haqqında mülahizələr təşkil edir. Bir sözlə, iqtisad elmi dəyər, qiymət, pul, sərvəy haqqında mülahizələr əsasından formalaşmışdır. Ona görə də, dəyəri, qiyməti iqtisad elminin oxu adlandırmışlar. Lakin indiki halda bu fundamental müddəalar sanki əsil reallığı ifadə etmir. Qloballaşdırma posesləri bu gerçəkliyi sürətlə rədd etməkdədir. Artıq milli iqtisadiyyatlar vahid ümumdünya sisteminə sürətlə qoşulmaq məcburiyyətindədirlər. Bu mənada fikrimcə, qloballaşma gözə görünməyən “mədəni zorakılıqdır”. Bəşər cəmiyyəti inkişafı dövründə bu kimi hal dəyişkənliyi baş verməmişdir. Dünya iqtisadiyyatı texnoloji inqilab ərəfəsindədir. Əmtəə və kapitalın hərəkətinin liberallaşması sürətlənməkdədir və s. Bir sözlə qloballaşma elə vəzifə və öhdəçiliklər meydana qoyur ki, ölkələr ona qeyri şərhsiz əməl etməlidirlər. Görkəmli iqtisadçı L.Abalkinin dediyi kimi indiki dövrdə dünyada dərin keyfiyyət dəyişkənlikləri baş

verir ki, bu özünün ciddi elmi dərk olunmasını tələb edir. Bütün bu proseslər mövcud iqtisadi nəzəriyyələrdə köklü modifikasiyalara səbəb olmaqla iqtisadi idarəetmənin fundamental əsası olan ümumbəşəri prinsiplərdə məntiqi dəyişikliklərə səbəb olmaqla yeni-yeni suallar ortaya qoyaraq iqtisadi təfəkkür haqqında yenidən fikirləşməyi tələb edir. Bir sözlə demək istəyirik ki, qlobal dəyişikliklər fonunda yeni iqtisadi təfəkkürün formalaşması prosesi baş verməlidir. Yeni iqtisadi təfəkkür dünyada baş verən yeni dəyişiklikləri yeni prinsip və metodologiyalardan istifadə etməklə idarə olunmalıdır. "Adəm Peyğəmbərdən tutmuş müasir dövrə qədər dünyanın rasional idarəedilməsi problem olaraq qalmaqdadır".

Qloballaşan dünya bütün elmlərin o cümlədən də iqtisad elmində nəzəriyyələrin təşəkkülündə ümumvəhdət kontekstindən metodoloji yanaşmanı tələb edir. Başqa sözlə, hesab edirik ki, bu cür metodoloji yanaşma olmadan hər hansı bir elm təsvirçi elmdən başqa heç bir məzmun daşımır. İqtisad elmi yarandığı andan heç də həmişə bu vəhdətliyi elmi şəkildə ifadə edə bilməmişdir. O, XVII əsrin əvvəllərindən formalaşmağa başladığı bir zamandan müəyyən nəzəriyyələr əsasında uzun müddət öz predmetinin axtarışında olmuşdur. İqtisadi hadisə və proseslərə, cəmiyyətdə gedən sosial-iqtisadi dəyişikliklər kontekstindən deyil, dövrün qabartdığı, ortaya atdığı adi görsənə bilən və adi təfəkkür tərzinə sığa bilən, buna baxmayaraq olduqca mürəkkəb və düşündükcə düşündürə bilən fikirlər ortaya atılmışdır. Məsələn, iqtisad elminin ilk elmi məktəbi olan (merkantilistlər) elmin çıxış nöqtəsini qızıl və gümüş alverində, obyektini isə ticarətdə görürdülər. Onların sələfləri olan (fiziokratlar) elmin cışıx nöqtəsini xalis gəlirin tədqiqində, obyektini isə torpaqda görürdülər. Az sonra ortaya çıxan klassik siyasi iqtisad məktəbi bu boşluqları dolduraraq elmin çıxış problemini və ya predmetini əmək və dəyərin yaranmasında, obyektini isə ictimai istehsalın bütün sahələrində duyurdular. Bu dövrlərdə belə nəzəriyyələrin təşəkkülü prosesində ümumvəhdət metodologiyasının yeri sanki hiss olunmurdu. Lakin ümumvəhdət metodologiyasının tətbiqi üçün zəmin hazırlanırdı. Bu zəmindən ətraflı bəhrələnən marksistlər ilk dəfə olaraq iqtisad elminin təşəkkülündə ümumvəhdət metodologiyasının tətbiqini əsas görürdülər və bunun əsasında iqtisadi hadisə və proseslərin cəmiyyətdə bir bazis təşkil etməsini vurğulayaraq, bu bazisin özünün formalaşmasında üst qurum elementlərinin də zəruri hal olduqlarını təsdiqlədilər. Bir sözlə elmin predmetinə ictimai kontekstdən münasibətlər sözünü gətirdilər. Marksistlər öz əsərlərində bütövlükdə cəmiyyətin inki-42afı prosesində cəmiyyətdə maddiliklə (burada bazislə) məhdudlaşdırdığını qeyd etmir, məhz şüurla bağlı (burada üstqurum elementləri) zəruri vəhdətliklərini ifadə edirdi [1, s.36].

Lakin fikrimcə onlar bu ümumvəhdətlik metodologiyalarına axıra qədər sadiq qala bilmədilər. Beləliklə maddiliyi qabartmaqla sanki bu ümumvəhdətlik metodologiyasını tədricən unutmalı oldular. Bu hal sonrakı iqtisadi məktəblərdə

də, hətta müasir hallarda da özünü büruzə verir dünya əhalisi sürətlə artır, xəstəliklər, müxtəlif cür epidemiyalı qriplər baş alıb getməkdədir. Enerji, xammal çatışmazlığı mövcuddur. Ərzaq təhlükəsizliyi günü-gündən kəskin problem kimi qarşıda durur. Dünya okeanlarından istifadə aşağı səviyyədədir. Kosmosdan sülh məqsədi üçün istifadə olunması üçün görülən işlər tələblərə cavab vermir. İnkişaf etməkdə olan ölkələrin geriliklərinin aradan qaldırılması üçün fundamental tədbirlər görülmür. Belə halda araşdırmalar göstərir ki, bu gün dünya iqtisadiyyatı özünün ən çətin və ziddiyyətli məqamlarından birini yaşayır. Belə ki, onu təcəssüm etdirən real nəzəriyyələr, qanunlar yox səviyyəsindədir. Qloballaşma dünya iqtisadiyyatında sürətlə qütbləşmə prosesini gərginləşdirərək bu dövrdə qarşıya çıxan problemlərin həlli üçün ölkədə iqtisadi inkişaf səviyyəsinə uyğun iqtisadi təhlükəsizliyin təmin olunmasını tələb edir. Hər bir ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması ölkə iqtisadiyyatının səmərəli strukturunun formalaşdırılması, ehtiyatlardan səmərəli istifadə olunması və mövcud olan sosial-iqtisadi problemlərin həll olunması ilə birbaşa əlaqədardır. Müasir dövrdə əksər ölkələrin inkişaf imkanlarının məhdudluğu və çox zaman xarici amillərdən asılılığı onların iqtisadi təhlükəsizliyinin təmin olunmasına ciddi şəkildə təsir göstərir. Onların həm iqtisadi, həm də siyasi-iqtisadi müstəqilliyi üçün təhlükə törədir. İqtisadi sərbəstlik dövlətin bütün milli ehtiyatlar və istehsala tam nəzarəti, sərbəst iqtisadi qərar qəbul edə bilməsi, milli iqtisadi dayanıqlığı və sabitliyinin təmin olunması, iqtisadiyyatın özünü inkişaf etdirmə qabiliyyətinin olması və s. mühüm prinsipləri özündə əhatə edir. İqtisadi təhlükəsizliyin təmin edilməsi bugünkü anlamda qlobal müstəvidə sanki ardıcıl deyil, həmçinin bir-birini təmin edə bilmir. Belə ki, qlobal müstəvi mühitində ölkələrin iqtisadi sərbəstliyi azalmağa doğru gedir.

Bu iqtisadi proseslərin qlobal xarakter almasında, bir sıra ölkələrin regional (bölgə) iqtisadi inteqrasiyası mühüm rol oynamış və hazırda da oynamaqdadır".

Qlobal müstəvi mühitində ölkələrin sərbəst iqtisadi qərarlar qəbul edə bilməsi çətinləşir, ağırlaşır. Belə ki, transmilli korporasiyaların fəaliyyəti, dünyada baş verən qlobal iqtisadi problemlərin gərginliyi (işsizliyin artması, ərzaq məhsullarının sürətlə bahalaşması, yoxsulluğun artması və s. kimi amillər) buna təsir göstərir. Milli iqtisadiyyatın dayanıqlılığı və sabitliyinin təmin olunması daha çox xarici amillərdən, siyasi qərarlardan, təbii və ekoloji problemlərdən, dünyaya xas ola bilən bu kimi ciddi problemlərdən asılı vəziyyətdə qalır ki, belə bir halda ayrı-ayrı ölkələr üçün iqtisadi təhlükəsizliyin təmin edilməsi öz milli maraqların ifadə etmir. Nəticədə milli sərhədlər pozularaq beynəlxalq səviyyədə səmərəli şəkildə qorunma və idarəetməyə təminat yaranır. Beynəlxalq səviyyədə formalaşan qanun və prinsiplər isə heç də ayrı-ayrılıqda ölkələrin milli maraqlarını ifadə etmir. Belə ki, keyfiyyətcə bu yeni hal kimi imkan vermir ki,

milli dövlətçiliyin inkişafı, həmçinin millətlərin öz maraqlarını dərk etməsi lazımi qaydada həll oluna bilsin [1, s.36].

Bütün bu köklü dəyişikliklər kəmiyyət və keyfiyyət qeyri müəyyənlikləri müasir cəmiyyəti, onun iqtisadi mühitini izah etmək üçün yeni iqtisadi təfəkkürün zəruriliyini diktə edir. Məhz bunun üçün də iqtisadi nəzəriyyə dilematik olaraq onun fundamentallığı üçün aşağıdakı bəzi zəruri suallara cavab vermək məcburiyyətindədir. O özü üçün zaman problemini götür-qoy etməli iqtisadi nəzəriyyənin əvvəl və müasir fəlsəfəsini araşdırmalı, iqtisadi nəzəriyyələrin mahiyyəti və məzmununun modifikasiyasını hal dəyişkənliklərini öyrənməli, iqtisad elminin keçmiş və indiki funksiyalarını müqayisələşdirməlidir. Həmçinin yeni iqtisadi nəzəriyyələrə fəlsəfi müstəvidən baxaraq sistem dəyişibsə sistemli yanaşma metodologiyası işləyib hazırlanmalıdır. Formalaşacaq yeni iqtisadi nəzəriyyələr metodoloji xüsusiyyətləri götür-qoy edilərək dünya iqtisadiyyatında vəhdətlik problemi milliliyin silinmə ardıcıllığı, onu doğuran səbəblər və mühit elmli təhlil edilməlidir. Bu halda yeni iqtisadi nəzəriyyələr qloballaşan cəmiyyətdə iqtisadi proseslərlə yanaşı humanitar problemləri də diqqətdə saxlamalıdırlar. Belə ki, çağırışda qeyd edilir ki, müasir dövrdə elmin və texnikanın tərəqqisinin insanı, cəmiyyəti və bütövlükdə sivilizasiyanı dərin dəyişikliklərə məruz qoymuşdur. Bu baxımdan əvvəlkilərdən fərqli olaraq iqtisadi inkişaf humanitar aspekləri tədqiq olunmalı, araşdırılmalı, komvengent texnologiyalar və gələcəyin konturları strateji baxımdan araşdırılmalı, postmodernist mədəniyyətində ənənəvi dəyərlər sistemi araşdırılaraq müasir kütləvi informasiya vasitələrinin rolu da aydınlaşdırılmalıdır.

Demokratik ölkələrdə baş verən dərin maliyyə-iqtisadi böhranlar, təbii resurs və sərvətin hasilatının artmasının məhdudlaşması, İKT-nin, modernləşmənin inkişafı, insan amilinin sosial-iqtisadi inkişafda rolunun artması inkişafın ümumi sürətinə, fasiləsizliyinə, dayanıqlılığına təsir göstərir. İKT-nin, modernləşmənin sürətli inkişafı, iqtisadiyyata qoyulan investisiyanın tərkibində sabit kapitalın (c) xüsusi çəkisini artırır ki, bu da istehsala cəlb olunan təbii resursların, işçi qüvvəsinin məhdudluğu şəraitində mənfəət normasının aşağı düşməsinə şərait yaradır. Baş verən dərin maliyyə-iqtisadi böhranlar, dövlət idarəetmə və tənzimləmə sisteminin köhnəliyi (əsasən XX əsrin 30-40-cı illərində formalaşmışdır) ÜDM istehsalının artımında fasilələr yaradır, ümumi inkişafın tempini aşağı salır. Yeni davamlı, dayanıqlı inkişaf amillərini tapmağı ön plana çəkir.

Geniş mənada “bəşər cəmiyyətinin maddi həyat nemətlərinin istehsalı, bölgüsü, mübadiləsi, istehlakını idarə edən qanunları öyrənən” (K.Marks) iqtisad elmi öz tarixi təkamülündə “təhlil və fikir iki hissəyə ayrılaraq [2,s.435] (J.Şumpeter), həmişə “insan cəmiyyətinin normal həyat fəaliyyətinin öyrənilməsi” (A.Marşal) istiqamətində, “nə, necə, kim üçün istehsal etməli” prinsipləri təməlində, daha səmərəli son iqtisadi-sosial nəticələrə nail olmağa doğru irəliləmiş, habelə “tələbatların sonsuzluğu və resursların məhdudluğu şəraitində in-

sanların qarşılarına qoyduqları iqtisadi məqsədlərə çatmaq səylərini" (L.Robbinson) araşdırmışdır.

Bəşəriyyətin keçdiyi mürəkkəb və ziddiyyətli yüksəliş yolunun, müxtəlif ictimai-iqtisadi quruluşların, fərqli təsərrüfat sistemlərinin ümumi inkişaf qanunauyğunluqlarının, onların özünəməxsus cəhətlərinin tənqidi surətdə təhlil olunub öyrənilməsində, ən başlıcası isə bu zəngin təcrübədən yaradıcılıqla faydalanmaqda, ictimai elmlərin tərkib hissəsi sayılan iqtisadi nəzəriyyənin müstəsna əhəmiyyəti vardır.

İnsanlar yaşadıqları cəmiyyəti, onun enişli-yoxuşlu inkişaf mərhələlərini və hazırda gəlib çatdığı sosial-iqtisadi səviyyənin konkret göstəricilərini, eyni zamanda gələcək yüksəliş istiqamətlərini elmi biliklər əsasında öyrənib müəyyənləşdirirlər.

Geniş əhatəli iqtisad elminin nəzəri və metodoloji əsası olan iqtisadi nəzəriyyənin müxtəlif problemlərini bilmək, qarşıya çıxan gündəlik, habelə gələcək qayğıları səriştəli həll etmək yolunda dövlət xadimlərinə, siyasətçilərə, diplomatlara, işgüzar bizneslə məşğul olanlara, gələcək mütəxəssislərə sadə peşə sahibi insanlara da, şübhəsiz faydalıdır. Tanınmış iqtisadçı Q.Mənkyü (ABŞ) qeyd edir ki, sadə işlərdən başlamış ən yüksək məsuliyyətli vəzifələri yerinə yetirərkən "iqtisad elminin sərt qayda-qanunlarına bələd olmaq" həmişə yardımçı və köməkçi rolunu oynayacaqdır.

Mütəxəssislərin fikrincə, iqtisad elmi mütləq hökmlər vermək və uzunömürlülüyü ilə öyünə bilməz. Çünki, həyat inkişaf edib irəlilədikcə, iqtisadi sistemlər dəyişdikcə, elm-texnika sahəsində yeni nailiyyətlər qazanıldıqca, daha mükəmməl materiallar və resurslar meydana çıxdıqca, istehsalın və insanların tələbatları, zövqləri dəyişdikcə, şübhəsiz iqtisad elminin (nəzəriyyənin) qarşısında duran problemlər də yeniləşir. Lakin iqtisadiyyatın əsas vəzifəsi – insanların müxtəlif təyinatlı tələbatlarını ödəmək üçün maddi (mənəvi) nemətlər istehsal etmək və müxtəlif təyinatlı xidmətlər (servis dairəsi) göstərməkdir [3, s.158].

Dünya iqtisadiyyatının inkişaf təmayülləri istifadə edilən modelin metodoloji xarakteristikasından asılı olaraq müxtəlif variantlarda qiymətləndirilə bilər. Aydındır ki, dünya iqtisadiyyatı hansısa bir əlahiddələşmiş, mütləq mahiyyət daşıyan konsept deyildir. O, coğrafiyadan, ekologiyadan, sosial-etik münasibətlər sistemindən, geosiyasi mühitin xarakteristikasından və s. funksional asılılıqdadır. Eyni zamanda, o da aydındır ki, qeyd edilən çoxluğun olduğu kimi tədqiqat prosesinə cəlb edilməsi, ifrat konkretləşdirmə mövqeyindən çıxış edilməsi, yəni elmi abstraksiyanın prosesdən sərf-nəzər edilməsi bu gün dövriyyədə olan metodoloji arsenalın kasadlığı ucbatından mümkünsüz görünür. Buna görə də, qiymətləndirmənin ən geniş yayılmış forması proses və hadisələrin dəyər terminlərindən yararlanmaqla – pul ifadəsində həyata keçirilməsi variantıdır. Bu aspektdən qiymətləndirmənin əsas göstəriciləri kimi Qlobal Məcmu Məhsul,

sənaye istehsalı, dünya ticarəti, həyat səviyyəsi göstəriciləri, eləcə də digər sosial-iqtisadi indikatorlar çıxış edirlər.

Adəm peyğəmbərdən tutmuş müasir dövrə qədər dünyanın rasional idarə edilməsi problem olaraq qalmaqdadır.

Bütövlükdə qlobal səviyyəni əhatə edə biləcək universumun yoxluğu hadisə və proseslərin inteqrasiyasında ifrat müxtəliflik doğurmaqla, onsuz da kifayət qədər problematik olan qlobal situasiyanı daha da mürəkkəbləşdirir. Sanki, dünya keçmişini unudub və gələcəyinin necə olacağını bilmir, yaxud qlobal səviyyədə klassik xaos situasiyası formalaşmışdır [4, s.254].

## Ədəbiyyat:


1. Абалкин Л.»Вызовы нового века». Москва.; Наука, 2001, с.36
2. Hacıyev Ş., Bayramov Ə.”Dünya iqtisadiyyatının tarixi”, Bakı.; Elm, 2011. səh. 435.
3. Əbdülsəlimzadə Q.Y., Əlibəyov İ.V.”İqtisadi tarix”. Bakı, İqtisad, 2008. səh. 158
4. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M., Milli iqtisadiyyatın dövlət tənzimlənməsi., Bakı, ADIU-nun nəşriyyatı, 2007., 254 s.


**Иса Гусейн оглу Алыев**

## Необходимость регулирования мировой экономике с новом экономическом мышлением

## Резюме

В статье затронуты вопросы мировой экономики, необходимость управления нового экономического мышления, проблемы в области исследований, они являются аспектами решения. Свободное принятие экономических решений в странах глобального плоскостности posesi довольно трудно. Таким образом, деятельность транснациональных корпораций, глобальные экономические проблемы, напряженность (растущая безработица, быстрый рост пищевых продуктов, увеличение бедности и т.д., как факторов) серьезно влияет на эти процессы.

**Ключевые слова:** конкурентоспособность, крупная промышленность, предпринимательство, рыночная экономика, экономические реформы

**Isa Huseyn oglu Aliyev**

**The need of manage of the world economy by the new economic thinking**

**Summary**

The article touched the issues of the world economy, the need to manage the new economic thinking, problems in the field of investigations. Free economic decision-making in the countries are very difficult. Thus, the active-ties of transnational corporations, the global economic problems, tension (rising unemployment, rapid increase of food products, increasing poverty etc. as factors) seriously affects these processes.

**Keywords:** competitiveness, large-scale industry, entrepreneurship, mar-ket economy, economic reforms